

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 169 (23.811)

15 sentyabr 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rafiq Cəlilovu Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı və Rəşad Tağıyevi Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib.

Dövlətimizin başçısı qəbulda çıxış edərək bildirib ki, son illər Cəlilabad və Şəmkir rayonlarının sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görülüb. Dövlət investisiya proqramları çərçivəsində əsas infrastruktur layihələri icra edilib.

Prezident İlham Əliyev qeyd edib ki, buraxılmış ciddi nöqsanlar, pozuntular, rüşvətxorluq və korrupsiya hallarına görə həm Cəlilabad, həm də Şəmkir rayonlarının keçmiş icra başçıları cinayət məsuliyyətinə cəlb olunmuşlar. İndi hər kəs görür ki, heç kim qanundan yuxarı dayana bilməz və burada hər kəs qanun qarşısında bərabərdir. Dövlətimizin başçısı bildirib ki, yeni təyin olunan icra başçıları elə işləməlidirlər ki, insanlar razı qalsınlar, rayonlarda işlər yaxşı getsin, inkişaf olsun, quruculuq olsun, abadlıq olsun.

Rafiq Cəlilov və Rəşad Tağıyev göstərilən yüksək etimada görə dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirərək söz veriblər ki, rayonların iqtisadi, sosial, mədəni inkişafının təmin olunmasında əllərindən gələni əsirgəməyəcəklər.

## E.S.Əliyevin Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Səfa oğlu Əliyev Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 sentyabr 2021-ci il*

## E.M.Axundovun Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elvin Malik oğlu Axundov Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 sentyabr 2021-ci il*

İcmal

## İnkişaf dinamikası ilə sabaha uğur və qətiyyətlə irəliləyən diyarımız

### *Ötən ayın ümumi mənzərəsi bu qənaətə gəlməyə əsas verir*

***Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf, elm, təhsil, innovasiya sahəsində yenilikçi ideyaların gerçəkləşdirilməsi, əhalinin rifah səviyyəsinin davamlı artırılması müasir tariximizə yeni-yeni uğurların yazılması ilə öz bəhrəsini verir. Bu gün muxtar respublikanın paytaxt Naxçıvan şəhərindən ən ucqar bölgələrə doğru şaxələnən quruculuq tədbirləri bu qədim diyarın sabahla döyünən həyat ritmi, daha firavan gələcəyin yaxınlaşan addım səsləridir. Bunu ötən ayın ictimai-siyasi mənzərəsi də aydın əks etdirir.***

#### *İçməli su şəbəkəsi rahat həyat tərzinin başlıca təminatıdır*

Muxtar respublikada sosial-iqtisadi islahatların reallaşdırılması zamanı əhalinin rifahının və kommunal-məişət şəraitinin yaxşılaşdırılması prioritet məsələ kimi götürülür, yaşayış məntəqələrində yeni içməli su sistemləri qurulur. Bu istiqamətdə aparılan çoxsaylı tədbirlərdən Culfa rayonunun Yaycı kəndinə də pay düşüb. Bir neçə il bundan əvvəl həmin kənddə ərazilərin suvarılması üçün 3 nasos stansiyası qurulub, bütün inzibati binalar yenidən qurularaq müasir avadanlıqlarla təchiz edilib, kənd sakinlərinin istifadəsinə verilib. İçməli su probleminin birdəfəlik öz həllini tapması bütün kənd sakinləri tərəfindən minnətdarlıqla qarşılanır.

Avqustun 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Yaycı kəndində qurulacaq içməli su şəbəkəsinin layihəsinə baxıb. Məlumat verilib ki, layihəyə əsasən 1950 evə su verilərək sayğac quraşdırılacaq. Yerin relyefindən asılı olaraq mənzillərə 2-5 bar arasında təzyiqlə su veriləcək. Bununla da kənd sakinləri fasiləsiz olaraq Beynəlxalq Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə təmin olunacaqlar. Ali Məclisin Sədri çıxış edərək Gilançayda tikiləcək kaptajdan 14 kilometrə yaxın aparıcı xətt və kənddaxili 140 kilometrə yaxın daxili su xətti çəkilməsini böyük layihə kimi dəyərləndirib, texniki-mühəndis qaydalarına əməl olunmaqla işlərə başlanılması və keyfiyyət amilinə diqqət yetirilməsi barədə tapşırıqlar verib.

#### *Tərəfdaş dövlətlərlə əməkdaşlıq inkişafa meyillilik məramından irəli gəlir*

Müstəqil dövlətçiliyi, iqtisadi inkişaf tempi, regionda hərbi-siyasi, iqtisadi cəhətdən söz sahibi olan Azərbaycanın beynəlxalq əlaqələr sistemində onun ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikasının da özünəməxsus yeri var. Naxçıvanın hərtərəfli inkişafı ölkəmizin tərəfdaşı olan dövlətlərlə iqtisadi-ticarət, humanitar-mədəni əlaqələrin şaxələnməsinə geniş üfüqlər açır. Muxtar respublikada sabit iqtisadi sistemin yaradılması, iqtisadi potensialın hər il sürətlə artması isə elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlıq əlaqələrini inkişaf etdirməyə dünya dövlətlərinin təmsilçilərində maraq yaradır. Avqustun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Corc Dik ilə, avqustun 16-da isə Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Muxtar respublika rəhbəri israilli diplomatla ölkələrimiz arasındakı münasibətlərdən bəhs edib. Görüş zamanı qarşılıqlı maraqdoğuran məsələlər barədə fikir mübadiləsi aparılıb. Bildirilib ki, kommunikasiyaların bərpasından sonra əlaqələr müxtəlif sahələrdə genişlənəcək.

#### *Strateji yüksəkliklərdəki güclü vətənpərvərlik ruhu, müdafiə qüdrəti dövlət-ordu birliyinin möhtəşəm təcəssümüdür və ya Vətən sevgisinin hərarəti ilə isinən döyüş mövqelərimizdə*

İkinci Qarabağ müharibəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının şücaəti bir daha göstərdi ki, Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər nəticəsində burada yaradılan peşəkar hərbi potensial nəinki qədim diyarımızı etibarlı şəkildə müdafiə etmək qüdrətinə malikdir, həm də bütövlükdə, ərazi bütövlüyümüzün təmin olunmasında öz sözünü deməyə qadirdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev demişdir: ***"Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə,***



***ölkəmizin ordu potensialının güclənməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır".***

Muxtar respublikada aparılan məqsədyönlü ordu quruculuğu siyasəti nəticəsində yüksək dağlıq ərazilərdə yerləşən hissə və bölmələrimizdə nümunəvi xidmət şəraiti yaradılıb. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq muxtar respublikanın əsas müdafiə istehkamı sayılan Təkəqaya və Soyuq bölgələrindəki hərbi birləşmələrin məişət şəraiti xeyli yüksəldilib.

Əlahiddə Ümumqoşun Ordunun dəniz səviyyəsindən 3000 metrdən artıq yüksəkliklərdə yerləşən bölmələrində 2021-ci ilin ötən dövrü ərzində hərbi təyinatlı obyektlərin tikintisi uğurla davam etdirilərək, ümumilikdə, 11 müdafiə mövqeyində yeni əsgər yataqxanaları tikilib, mövcud olanlar əsaslı təmir edilib. Çətin dağlıq şəraitdə yerləşən bölmələrdə, dayaq məntəqələri və mövqelərdə müasir xidmət şəraiti yaradılıb.

Mühəndis texnikalarının köməyi ilə yaşayış məntəqələri və müdafiə mövqeləri arasında 70 kilometrlik hərəkət yolu yenidən çəkilib və 200 kilometrdən artıq təminat yolu təkmilləşdirilərək bərpa edilib.

Sərhəd bölgəsində yerləşən hərbi hissələrə, yüksəkliklərə dəfələrlə gələrək buradakı xidmət şəraiti ilə şəxsən maraqlanmaqla hərbçilərimizə böyük mənəvi stimul olan Ali Məclisin Sədri avqustun 18-də Təkəqaya və Soyuq bölgələrində olub, ön xətdə xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə maraqlanıb. Ali Məclisin Sədri əsgərləri salamlayıb, çətin dağlıq şəraitdə xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə onlara təşəkkürünü bildirərək deyib: ***"Ölkəmizin sərhədlərinin qorunması ordumuzun qarşısında duran əsas vəzifədir. Buranın da strateji ərazi olduğu nəzərə alınaraq 2014-cü ildə postların yaradılması və xidmətin təşkili barədə qərar verildi. Artıq 7 ilə yaxındır ki, Azərbaycan əsgəri çətin dağlıq şəraitdə fasiləsiz xidmət aparır, qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirir. 3700 metr yüksəklikdə xidmət aparmaq cəsarət və dözümlülük, bu cür strateji yüksəkliyin əldə saxlanması isə böyük qəhrəmanlıq tələb edir. Siz bunları yerinə yetirdiniz və göstərdiniz ki, Azərbaycan əsgəri qarşıya qoyulan tapşırıqları yerinə yetirməyə qadirdir".***

*Ardı 2-ci səhifədə*

Əsgər və zabitlər göstərdiyi diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlıqlarını bildirdilər. Ali Məclisin Sədri xidmətdə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırıb, digərlərinə təşəkkür elan edib, yaradılan şəraitlə maraqlanıb, komanda müşahidə məntəqəsində mövqelərimizin vəziyyəti, mövcud topoqrafik və taktiki şəraitlə tanış olub.

Ərazinin etibarlı müdafiəsi həm də asayişin bərqərar olduğu yerdə firavan həyat deməkdir, Ordubad rayonunun ərazisində yerləşən Təkəqaya yaylaqlarında heyvandarlar üçün geniş imkanlar yaradılıb, ərazidəki yaylaqların otlaq sahələri artırılıb. Yolların çəkilməsi gediş-gəlişi də xeyli asanlaşdırıb. Yüksək dağlıq ərazi olmasına baxmayaraq, təsərrüfatlara mütəmadi olaraq baytarlıq xidməti də təşkil edilir. Avqustun 18-də Ali Məclisin Sədri Təkəqaya yaylaqlarında Ordubad rayonunun Nüsnüs kəndindən olan oba sakinləri ilə görüşüb, onların qayğıları ilə maraqlanıb, söhbət edib, işlərində uğurlar arzulayıb. Yaradılan şəraitə görə oba sakinləri dövlətimizə minnətdarlıq edib.

Sonra Ali Məclisin Sədri Zəngəzur silsiləsinə baxıb, Ordubad çayını qidalandırmaq üçün Zəvvar arxında aparılan təmizlik-bərpa işləri ilə də maraqlanıb. 2016-cı ildə bərpa olunan Zəvvar arxında hazırda təmizləmə, genişlətmə və bərkitmə işləri görülür. Arxın əhəmiyyətini vurğulayan Ali Məclisin Sədri deyib ki, bu arx vasitəsilə nə qədər insan əkin işləri ilə məşğul olur. Həmçinin Əylis kəndindəki kəhrizlərdə sular artmaqla bərabər, taxıl əkilməyən yerlər də artıq əkilir. Ona görə Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə tapşırıq verildi ki, arxda təmizləmə işləri həyata keçirilsin. Ali Məclisin Sədri görülən işlərə görə işçi heyətə təşəkkür edib.

Dövlətimizin qayğısı ilə Soyuq bölgəsində təhlükəsiz və rahat şəraitdə xidmətin təşkili təmin olunub. Ali Məclis Sədrinin Naxçıvan diyarının müdafiəçiləri ilə mütəmadi olaraq görüşü əsgər və zabitlərdə böyük ruh yüksəkliyi yaradır. Avqustun 18-də muxtar respublika rəhbəri Soyuq bölgəsində yerləşən hərbi hissədə və müdafiə mövqelərində olub. Şəxsi heyəti salamlayan Ali Məclisin Sədri deyib: ***"1992-ci ildən bu ərazilər Azərbaycan əsgərinin nəzarətindədir. Əvvəlki illərdə bu cür şərait olmasa da, Azərbaycan əsgərinin şücaəti, hünəri imkan verdi ki, çətin şəraitdə xidmət təşkil edilsin. Sonrakı illərdə burada yaradılan şərait xidmətin təşkilini xeyli asanlaşdırdı. Ötən dövrdə bu ərazilərdə xidmət layiqincə yerinə yetirilib".***

Şəxsi heyətə təşəkkür edən Ali Məclisin Sədri deyib ki, Soyuq və Təkəqaya döyüş mövqeləri silsilə dağ yüksəklikləridir. Aşağı nöqtəsi Kilitdə 400 metrdən başlayıb, ən yüksək nöqtəsi 3700 metrlik Təkəqayada bitir. Bütün bu ərazilər ölkəmizin işğalçı ölkə ilə sərhədləri içərisində ən yüksək nöqtələrdəndir. Belə çətin relyefdə Azərbaycan əsgərinin cəsarət və şücaəti hesabına nümunəvi hərbi xidmət təşkil olunub. Muxtar respublika rəhbəri əminliyini bildirib ki, şəxsi heyət yaradılan bu şəraitdən layiqincə istifadə edərək bundan sonra da torpaqlarımızın qorunmasında mərdlik və şücaət nümayiş etdirəcəkdir. Ali Məclisin Sədri deyib: ***"Soyuq döyüş bölgəsinə dəfələrlə gəlmişəm. O qayalardan yolların çəkilməsi şücaət, zəhmət tələb edirdisə, o ərazilərdə xidmət aparmaq da qəhrəmanlıqdır. Bütün bunlar Azərbaycan əsgərinin nəyə qadir olduğunun göstəricisidir. Həm Soyuq bölgəsində olan, həm də Təkəqaya ərazisində olan yüksəkliklərin əhəmiyyəti nəzərə alınaraq burada daim işlər aparıldı və xidmət lazımi səviyyədə təşkil edildi. Bu ağır şəraitdə hadisəsiz xidmətin təşkili də yüksək qiymətə layiqdir".***

Ali Məclisin Sədri xidmətdə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırıb, digərlərinə təşəkkür elan edib, yaradılan şəraitlə maraqlanıb. Muxtar respublika rəhbəri digər bölmələrdə olub, tabor mərkəzində və dayaq məntəqələrində hərbi qulluqçuların mənəvi-psixoloji durumu və xidmətin təşkili ilə maraqlanıb.

Ön xətdə xidmət edən şəxsi heyətlə görüşən Ali Məclisin Sədri bu ərazilərin qorunmasının insanların rahat yaşayışına xidmət etməsi baxımından zəruriliyini vurğulayıb, Soyuq bölgəsində qüsursuz və hadisəsiz xidmətin təşkilinə görə əsgər, gizir və zabitlərə təşəkkür edərək deyib: ***"Yaradılan şərait işin bir tərəfidirsə, əsas məsələ isə xidməti düzgün aparmaqdır. Bunu isə sizlər həyata keçirirsiniz. Sizin timsalınızda əminliklə deyə bilərik ki, Azərbaycan Ordusu sərhədlərimizi layiqincə qoruyur. Eşq olsun Azərbaycan Ordusuna!".*** Muxtar respublika rəhbəri xidmətdə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırıb, digərlərinə təşəkkür elan edib, yaradılan şəraitlə, şəxsi heyətin qidalanması ilə maraqlanıb.

Bölmələrin yerləşdiyi ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan binalar yüksək səviyyəli maddi-texniki təchizatı ilə də fərqlənir.

Ali Məclisin Sədri mövqelərin möhkəmləndirilməsi, təkmilləşdirmə işlərinin davam etdirilməsi barədə müvafiq tapşırıqlar verib. Gətirilmiş müxtəlif ərzaq məhsulları anbarlara təhvil verilib.

### *Vətən sərhəddən başlanır, sərhəd zastavasında işin nümunəvi təşkili isə dövlət qayğısına əsaslanır*

Düz otuz il əvvəl, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanda Ali Məclisin Sədri kimi fəaliyyətə başlaması ilə Azərbaycanın gələcək müstəqilliyinin əbədilik təminatı üçün çoxşaxəli siyasi qərarlar qəbul edildi ki, onlardan biri də məhz ilk dəfə Naxçıvandan başlanan milli sərhəd qoşunlarının yaradılması prosesi idi. Məhz ulu öndərin təşəbbüs və rəhbərliyi ilə həmin dövrdə Sovetlər Birliyinin muxtar respublikanın Ordubad və Sədərəkdəki sərhəd zastavaları Ermənistandakı sərhəd dəstəsinin tabeliyindən çıxarılaraq 41-ci sərhəd dəstəsinə birləşdirilib. Bunun ardınca 41-ci sərhəd dəstəsi də bütün əmlakı və silah-sursatı ilə birlikdə Naxçıvan Muxtar Respublikasının tabeliyinə verilib. 1992-ci il avqustun 22-də Naxçıvandakı sərhəd dəstəsində üçrəngli bayrağımız qaldırılıb və bununla da Azərbaycanın ilk milli sərhəd dəstəsinin təməli qoyulub.

Avqustun 21-də – "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının yaranmasının ildönümü ərəfəsində 6-cı sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilib. Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Ali Məclisin Sədri sərhədçi ailələri ilə görüşüb, onları xidməti yaşayış binasının istifadəyə verilməsi münasibətilə təbrik edib, yeni mənzillərində rahat yaşayış, xidmətdə olanlara isə vəzifə borclarının yerinə yetirilməsində uğurlar arzulayıb, sərhədçi uşaqlarına hədiyyələr təqdim edib, mənzillərdə yaradılan şəraitlə tanış olub.

Qeyd edək ki, yeni xidmət və yaşayış kompleksinin inşasına 2020-ci ilin sentyabr ayında başlanılıb. Kompleks qərargah, 8 mənzilli yaşayış binası, hamam-camaşırxana, qazanxana, əşya, ərzaq, tərəvəz, yanacaq-sürtkü materialları və silah anbarları, 2 avtomobil saxlancı və yardımçı binadan ibarətdir. 1-ci sərhəd komendantlığı tam şəkildə kamera sistemi ilə təchiz edilib. Xidməti ərazidə 14 kilometr məsafədə mühəndis-texniki çəpər və işarəverici qurğu quraşdırılıb, sərhəd yolları yenidən çəkilib, isinmə məntəqəsi və körpü əsaslı təmir olunub.

Qərargah binasında əsgərlər üçün 48 yerlik yataqxana, subay zabitlər üçün 8 yerlik istirahət otağı müasir şəraitlə təmin olunub. Şəxsi heyətlə görüş zamanı Ali Məclisin Sədri sərhədçiləri salamlayıb, ***"Sərhəd ölkənin müstəqilliyini təsdiq edən amil, sərhədçi olmaq isə böyük məsuliyyət və şərəf işidir",*** – deyərək bildirib ki, hər bir sərhədçi döyüş hazırlığını daim artırmalı, silah və texnikalardan istifadə vərdişlərinə mükəmməl yiyələnməli, sərhədlərin mühafizəsi ilə yanaşı, həm də təxribatçı qüvvələrə qarşı mübarizə aparmalı, fədakarlıq göstərməlidir. Sərhədi qorunan ölkədə inkişaf və sabitliyin davamlı olduğunu vurğulayan muxtar respublika rəhbəri şəxsi heyətə bu vəzifələrin icrasında uğurlar arzulayıb, zastava kompleksinin qurulmasında əməyi olanlara təşəkkürünü bildirib.

Həmin gün "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına "NİVA" markalı dörd xidməti avtomobil təqdim olunub. Ali Məclisin Sədri avtomobillərə baxıb, yaradılan şəraitə uyğun xidmətin təşkili barədə müvafiq tapşırıqlar verib. Gətirilmiş ərzaq məhsulları zastavanın anbarına təhvil verilib.

### *Tariximizə, mədəniyyətimizə verilən dəyər millilik amilidir*

Muxtar respublikada geniş vüsət almış abadlıq-quruculuq tədbirləri qədim diyarımızın mədəniyyət sahəsini də əhatə edib. Bu gün Naxçıvanda muzeylərin fəaliyyətinin canlandırılması, muzey şəbəkələrinin genişləndirilməsi sahəsində mühüm işlər görülür. Yeni muzeylər yaradılır, fondlar zənginləşdirilir, muzeylərin internet saytları istifadəyə verilir.

Avqustun 27-də bu sahədə görülən işlərin davamı olaraq Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binası istifadəyə verilib. Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Ali Məclisin Sədri muzeyin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi və rayon sakinlərini təbrik edərək deyib: ***"Tarix-diyarşünaslıq muzeyləri ölkəmizin hər bir bölgəsinin tarixini özündə yaşadan yerlərdir. Şahbuz rayonu da ölkəmizin qədim guşələrindəndir. 1982-ci ildə ümummilli lider Heydər Əliyevin rayonlarda tarix-diyarşünaslıq muzeylərinin yaradılması haqqında Qərarından sonra Şahbuz rayonunda da 500 eksponat fondu olan muzey yaradılmışdır. Ötən dövrdə muzeyin fondu zənginləşdirilmiş, 5 minə yaxın eksponat toplanmışdır. Muzey ötən dövrdə uyğunlaşdırılmış binada fəaliyyət göstərmişdir. Lakin bu gün muzey üçün müasir bina istifadəyə verilir və bu da fəaliyyətə müsbət təsir göstərəcəkdir".***

Ali Məclisin Sədri ümumtəhsil məktəblərində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin "Tariximizi qoruyaq və yaşadaq!" devizi altında həyata keçirdiyi aksiyanın bundan sonra da davam etdirilməsi, AMEA Naxçıvan Bölməsinin tarix-diyarşünaslıq muzeylərindəki eksponatlar və arxiv sənədləri əsasında muxtar respublikanın hər bir rayonunun tarixini yazması, muzeydə "Açıq qapı" günlərinin keçirilməsi, ümumtəhsil məktəbləri və digər yaradıcı təşkilatlarla əlaqə saxlanılması, muzey fondunun və ekspozisiyanın zənginləşdirilməsi və digər məsələlər barədə müvafiq tapşırıqlar verib.

Sonra muzeyə baxış olub. Muzeydə arxeologiya, məişət-etnoqrafiya, dekorativ-tətbiqi sənət, rəssamlıq, numizmatika, foto və sənədlər bölmələri fəaliyyət göstərir. Muzeyin ekspozisiyasında 536 eksponat nümayiş etdirilir. Hazırda fondda 4 min 679 eksponat vardır.

Həmin gün Ali Məclisin Sədri Şahbuz Rayon Maliyyə Şöbəsi və Statistika İdarəsi üçün tikiləcək yeni binanın layihəsinə baxıb, işlərə başlanılması barədə müvafiq tapşırıqlar verib.

### *Muxtar respublikada görülən tədbirlər nəticəsində bütün mövsümi problemlər artıq keçmişdə qalıb*

Müstəqilliyin ilk illərində bir tərəfdən erməni işğalçıları ilə mübarizə aparmaq məcburiyyəti, mənfur düşmən tərəfindən diyarımızın blokadaya salınması, digər bir tərəfdən ağır iqtisadi böhranla üz-üzə qalmaq, ozamankı ölkə hakimiyyətinin biganə və laqeyd münasibəti nəticəsində tamamilə təklənmək, taleyin ümidinə buraxılmaq kəskin kontinental iqlimə malik Naxçıvan Muxtar Respublikasında payız-qış fəsillərinin gəlməsini insanların arzuolunmaz röyasına çevirmişdi. İstilik və yanacağın olmaması, hava şəraitinin azacıq dəyişməsi ilə köhnə, uçuq-sökük yollarda gediş-gəlişin tamamilə dayanması, bəzən nəinki hansısa ucqar dağ kəndinə, hətta rayon mərkəzlərinə belə, gediş-gəlişin az qala həftə ilə müşkülə dönməsi insanların həyat ritmini pozurdu. Ümummilli lider Heydər Əliyev ideyalarının çoxillik və prinsipial şəkildə yaşadılması, inkişaf etdirilməsi nəticəsində artıq bu gün həmin məşəqqət və iztirablı günlər arxada qalmış, hərtərəfli qayğı ilə əhatə olunmuş, firavan həyatın ağuşuna aldığı insanlar payızın çiskinli-yağmurlu, qışın şaxtalı-boranlı günlərində də hər fəslin özünəməxsus gözəlliklərindən zövq almaqla yaşayıb-yaradırlar. Dövlət başçısı cənab İlham Əliyev Naxçıvanın bu tarixi inkişaf yolunu belə dəyərləndirmişdir: ***"Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir".*** Yaradılan bu şərait isə muxtar respublikada payız-qış mövsümünə hazırlığın dövlətimizin daim diqqət mərkəzində saxlaması, bütün sahələrdə qarşıya çıxa biləcək problemlərin vaxtında həllinə nail olunması, inkişaf proseslərinin davamlı xarakter alması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməsi ilə əlaqədardır. Hər il payız-qış mövsümünə hazırlıqla bağlı konkret hədəflərin müəyyənləşdirilməsi, bununla bağlı müvafiq tapşırıqların verilməsi, müəssisə və təşkilatların hazırlıq işlərini vaxtında aparması payız-qış mövsümünü uğurla başa vurmağa, əhalinin qış aylarında rahatlığının təmin olunmasına imkan verir. Görülən hazırlıqla bağlı muxtar respublikada elektrik enerjisi, təbii qaz və içməli su təchizatı, eləcə də istilik təminatı ilə yanaşı, həm də digər sahələrdə müvafiq işlər həyata keçirilir, soyuducu anbarlarda yerli məhsullardan ibarət ehtiyat yaradılır.

Avqustun 28-də Naxçıvan Muxtar Respublikasında 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib. Görülən çoxsaylı tədbirlər nəticəsində payız-qış mövsümündə müşahidə olunan problemlərin aradan qaldırıldığını vurğulayan Ali Məclisin Sədri müşavirədəki çıxışında onu da qeyd etmişdir ki, bütün bunlarla yanaşı, hər il muxtar respublikada payız-qış mövsümünə hazırlıq tədbirləri görülür, müşavirə keçirilərək aid qurumlara tapşırıqlar verilir. 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq da bu gün qarşıda duran əsas vəzifələrdəndir. Ali Məclisin Sədri elektroenergetika və qaz təsərrüfatı sahələrində enerji itkilərinə yol verilməməsinin, təhsil müəssisələrində, eləcə də digər dövlət qurumlarında və ictimai yaşayış binalarında istilik sistemlərinin hava şəraitinə uyğun tənzimlənməsinin və qənaətlə istifadə olunmasının vacibliyini qeyd edib, bu sahələrdəki nöqsanları diqqətə çatdıraraq aidiyyəti üzrə tapşırıqlar verib. Muxtar respublika rəhbəri qarşıya qoyulan vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulayıb.

*Muxtar respublikada ümummilli lider Heydər Əliyevin Azərbaycançılıq ideologiyasına, inkişaf strategiyasına əsaslanaraq, milli-mənəvi dəyərlərə söykənərək müasir dövrün çağırışları ilə səsləşmək, yeniləşmə, tərəqqipərvər düşüncə ilə yurda, insan amilinə xidmət qədim Naxçıvanımızın bugünkü uğurlarını şərtləndirən başlıca amillərdir. Qazanılan uğurlar isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikamıza növbəti səfəri zamanı muxtar respublikada görülən ardıcıl və çoxcəhətli işlərə verilən bu yüksək dəyərdə öz ifadəsini tapıb:* ***"Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır".***

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Naxçıvan Müdafiə Komitəsinin ilk sədri olmuş Elman Abbasov "Şücaətə görə" medalı ilə (ölümündən sonra) təltif edilib

*Azərbaycanın zəngin dövlətçilik tarixində güclü, mütəşəkkil, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Müdafiə Komitəsi yaradıldı.*

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə yaradılan və Əlahiddə Ümumqoşun Orduya qədər böyük bir inkişaf yolu keçən Müdafiə Komitəsinin ilk sədri Elman Abbasov təyin edilib. Azərbaycanın həqiqi hərbi xidmət keçirilən ilk milli ordusunun komandiri və Müdafiə Komitəsinin sədri olmuş Elman Abbasovun xüsusi xidmətləri sayəsində torpaqlarımızın qorunması daha da peşəkarlaşaraq müdafiə gücümüz nizami ordu halını almışdır.

7 sentyabr 2021-ci il tarixdə Azərbaycan Respublikası müdafiə nazirinin əmri ilə Abbasov Elman Abbas oğlu "Şücaətə görə" medalı ilə (ölümündən sonra) təltif edilib.

Azərbaycan Respublikasının "Şücaətə görə" medalının təqdim edildiyi tədbirdə Elman Abbasovun oğlu Tural Abbasov və qardaşı Nizami Abbasov iştirak ediblər. Tədbirdə Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Elman Abbasovun ərazi bütövlüyümüzün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini, Vətənin müdafiəsində hərbi borcunu yerinə yetirərkən şücaət göstərdiyinə görə təltif edildiyini diqqətə çatdırıb. Bu da Vətən qarşısında borclarını layiqincə yerinə yetirən, vətənpərvərlik nümunəsi göstərən insanların fəaliyyətinə dövlətimizin verdiyi yüksək qiymətdir.

"Şücaətə görə" medalı ilə təltif olunan Elman Abbasovun oğlu Tural Abbasov göstərilən qayğıya görə dövlətimizə minnətdarlıq edib və bunu Vətən, xalq qarşısında xidməti olan şəxslərə hərtərəfli dövlət qayğısı kimi dəyərləndirib.

Sonra "Şücaətə görə" medalı Tural Abbasova təqdim edilib.

**Nəriman NƏCƏFOV**

### 15 sentyabr Bilik Günüdür

# Təhsil cəmiyyətin inkişafının əsas amilidir



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 21 avqust tarixli Fərmanı ilə hər il sentyabrın 15-i ölkəmizdə Bilik Günü kimi qeyd olunur.*

***“Hesab edirəm ki, cəmiyyət harada olursa-olsun, nədən olursa-olsun, kasıb təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir”***, – deyən ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərində müəyyənləşdirdiyi təhsil strategiyası ölkəmizdə bu sahənin davamlı inkişafının əsasını qoymuş, müstəqillik illərində isə təhsillə bağlı daha geniş islahatlar həyata keçirilmiş, Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoymuşdur. Ölkə başçısı tərəfindən təhsil sistemində yenidənqurmanın həyata keçirilməsi, həm təhsilalanlar, həm də təhsilverənlər üçün əlverişli şəraitin yaradılması, təhsilin inkişafı istiqamətində dövlət proqramları və sərəncamların imzalanması təhsilimizin daha da inkişaf etdirilməsinə xidmət edir.

Naxçıvan Muxtar Respublikasında da ulu öndərin müəllifi olduğu təhsil strategiyası uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində son illər muxtar respublikada müasir təhsil infrastrukturu yaradılmışdır. Müstəqillik illərində muxtar respublikada 200-dən çox təhsil müəssisəsi üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Hər il olduğu kimi, bu il də muxtar respublikanın paytaxtı da daxil olmaqla, bütün bölgələrində geniş vüsət alan quruculuq və abadlıq işlərinin önündə təhsil müəssisələrinin tikintisi dayanır. Təkcə 2020-2021-ci tədris ili ərzində Culfa Rayon Təhsil Şöbəsi və 6 məktəb üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmiş, Ordubad və Culfa rayon məktəbdənkənar təhsil müəssisələrində innovativ dərnəklərin fəaliyyəti üçün zəruri şərait yaradılmışdır. Hazırda Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyində, STEAM Təlim-Tədris Mərkəzində, Şərur rayon Çərçiboğan, Dərvişlər, Babək rayon Sirab, Göynük, Araz, Ordubad rayon Vələver, Dırnıs, Pəzməri məktəbləri olmaqla, ümumilikdə, 10 təhsil müəssisəsində tikinti və ya yenidənqurma işləri davam etdirilir, Ordubad rayon Əndəmic kənd tam orta məktəbinin tikintisi isə başa çatdırılmışdır.

Muxtar respublikada təhsil müəssisələrinin müasir tədris vəsaitləri və informasiya texnologiyaları ilə təminatına xüsusi diqqət yetirilir. Artıq məktəblər ən müasir informasiya-kommunikasiya texnologiyaları və zəngin kitabxana fondu ilə təchiz olunmuşdur. Bu günədək Təhsil Nazirliyinin tabeliyindəki təhsil müəssisələrində 650-dən çox elektron lövhə və 5700-dən artıq kompüter quraşdırılmışdır. Muxtar respublikanın ümumtəhsil məktəblərinə 600 mindən çox latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat və 3 milyona yaxın dərslik verilmişdir. Yeni tədris ili üçün 182 mindən çox dərslik bölgü əsasında ümumtəhsil məktəblərinə çatdırılmışdır.

Müasir maddi-texniki bazanın formalaşdırılması təhsildə mütərəqqi üsulların tətbiqinə geniş imkanlar açmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası bütün təhsil müəssisələrində təhsilin keyfiyyətinin yaxşılaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmiş, yeni təlim üsullarının tətbiqinə əlverişli şərait yaratmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr təşkil edilir, gənclər elmi biliklərlə yanaşı, milli-mənəvi dəyərlərimizi, tariximizi, mədəniyyətimizi ən mütərəqqi üsullarla mənimsəyirlər.



Qısa müddətdə 53 təhsil müəssisəsində STEAM kabinəsi yaradılmış, STEAM təhsili ilə bağlı nəşrlər hazırlanmışdır. STEAM təhsilinin əhəmiyyəti nəzərə alınaraq 7 iyun 2021-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalamışdır. Sərəncamın icrası ilə bağlı Təhsil Nazirliyi tərəfindən zəruri təbirlər görülür, hazırda 50 ümumtəhsil məktəbində STEAM kabinələrinin yaradılması istiqamətində iş aparılır. Yeni tədris ilində həmin ümumtəhsil məktəblərində STEAM kabinələrinin yaradılması başa çatdıqdan sonra, ümumilikdə, 104 təhsil müəssisəsində 22 mindən çox şagird STEAM təhsilinə cəlb olunacaqdır.

Yaradılan yüksək təhsil şəraitinin nəticəsidir ki, 2020-2021-ci tədris ili də təhsildə innovasiyaların tətbiqi ilə yadda qalmışdır. Belə ki, ötən tədris ilində Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmiş, Təhsil Nazirliyinin nəzdində “Təhsil Kursları” Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilmiş, “İmtahan Mərkəzi” yaradılmış, Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi publik hüquqi şəxsə çevrilmiş, təhsil müəssisələrində 186 idman klubu yaradılmışdır. Bunlarla yanaşı, istedadlı şagirdlərin üzə çıxarılması, onların yaradıcılıq potensiallarının inkişaf etdirilməsi məqsədilə ilk dəfə olaraq STEAM təhsil metodu əsasında hazırlanmış layihələrdən ibarət texnosərgi, dərnək üzvlərinin əl işlərindən ibarət sərgi-satış, şagirdlər arasında “Robotexnika” və “Bədii gimnastika”, “Məktəblilərin dram müsabiqəsi”, “Məktəblilərin təsviri və dekorativ-tətbiqi sənət müsabiqəsi” keçirilmiş, “Sabahın müəllimi”, “Sabahın tədqiqatçıları” layihələri, “Tariximizi qoruyaq və yaşadaq” aksiyası uğurla davam etdirilmişdir.





Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli Qərarına uyğun olaraq pedaqoji kadrların müsabiqə ilə işə qəbulu həyata keçirilir. Bu isə gənc kadrların işlə təmin olunmasına, eləcə də ümumtəhsil məktəblərinin tədris prosesində informasiya texnologiyaları və müasir təlim üsullarından səmərəli istifadə edən bilikli müəllimlərlə təminatına geniş imkanlar açmışdır. Bu mənada, 2020-2021-ci tədris ilində də ümumtəhsil məktəblərində işə qəbulla bağlı keçirilən müsabiqələrdə uğurlu nəticələr qazanan gənc kadrlardan 307-si müəllim, 55-i isə məktəblərdə müxtəlif vəzifələrə təyin olunmuş, 1200-dən çox müəllim müxtəlif ixtisasartırma kurslarına, təlimlərə cəlb edilmiş, Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması aparılmışdır. Yaradılan şərait və müəllim hazırlığı istiqamətində görülən tədbirlər onların fəallığını artırmış, cari tədris ilində Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsində muxtar respublika müəllimlərindən 4-ü qalib olmuşdur.

Muxtar respublikada müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter almış, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına əsasən bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü 1,5, vəzifə maaşı 2 dəfə, cari il sentyabrın 1-dən isə bu kateqoriyadan olan müəllimlərin aylıq vəzifə maaşları əlavə olaraq orta hesabla 20 faiz artırılmışdır.

Şagirdlərin dünyagörüşlü və vətənpərvər formalaşmaları, intellektual və fiziki inkişafı, yaradıcılıq mühitində böyümələri üçün yaradılan şəraitin nəticəsidir ki, muxtar respublikada istedadlı və sağlam nəsil yetişir, istedadlı uşaqların adları Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na yazılır, onlar Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülürlər. Bu il də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təhsil və səhmat sahəsində fərqlənən 2 şagirdin adı Gənc İstedadların “Qızıl kitabı”na yazılmış, onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüşdür.

Bu gün muxtar respublikanın təhsil müəssisələrində yaradılan müasir tədris şəraiti, mütərəqqi təhsil metodlarının tətbiqi, müəllim əməyinə verilən yüksək qiymət sayəsində tədrisin səviyyəsi yüksəlmiş, 2020-2021-ci tədris ilində ümumtəhsil məktəblərini tam orta təhsil bazasından bitirən məzunlardan 17-si “Qızıl”, 17-si “Gümüş” nişana, 41-i fərqlənmə attestatına, ümumi orta təhsil bazasından isə 121-i fərqlənmə attestatına layiq görülmüş, şagirdlərdən 26-sı Respublika fənn olimpiadasının qalibi olmuşdur. Məzunların ali və orta ixtisas təhsili müəssisələrinə sənəd verməsi diqqətdə saxlanılmışdır. Məzunlardan 2470-i, yaxud 86 faizi ali məktəblərə keçirilən qəbul imtahanlarında iştirak etmiş, birinci mərhələnin nəticələrinə əsasən onlardan 1612-si, yaxud 65 faizi ali təhsil müəssisələrinə qəbul olmuşdur. Tələbə adını qazananların 261-i 500-700 arası bal toplamışdır.

Məktəblərdə şagirdlərin elmi biliklərlə yanaşı, sağlam və yüksək vətənpərvərlik ruhunda böyüdülməsinə də xüsusi qayğı ilə yanaşılır, hərbi hazırlıq və idman dərslərinə mühüm əhəmiyyət verilir. Bunun nəticəsidir ki, son illər gənclər arasında hərbi təhsilə maraq da xeyli artmışdır. 2021-ci ildə muxtar respublikanın ümumtəhsil məktəblərini Heydər Əliyev adına Hərbi Liseyə qəbul üçün 451 şagird sənəd vermişdir. Həmin şagirdlərdən 156-sı Hərbi liseyə qəbul olaraq kursant adını qazanmışdır.

Əldə olunmuş bu uğurlar muxtar respublikamızda təhsilə, təhsil işçilərinə göstərilən yüksək dövlət qayğısı nəticəsində mümkün olmuşdur. Bu isə intellektual gələcəyə doğru atılan addım kimi hər il Bilik Gününün əsl bayram əhvali-ruhiyyəsi ilə qeyd olunmasına əsas verir. Hər ötən təhsil ilini uğurlarla başa vuran məktəblərimiz daha böyük nailiyyətlər qazanmağa səy göstərir, bu nailiyyətlərin əsasını elə ilk addımlardan – Bilik Günündən qoyurlar. Bu gün ümumtəhsil məktəblərində yaradılan şərait, təhsil işçilərinə göstərilən hərtərəfli dövlət qayğısı, bir sözlə, muxtar respublikamızda insan kapitalına böyük önəm verilməsi hər bir valideyndə övladının yaxşı təhsil alacağına, onun gələcəyinin etibarlı əllərdə olduğuna əminlik yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***“Bu gün dünyada o ölkələr inkişaf edərək irəli gedirlər ki, orada təhsilə daha çox sərmayə qoyulur. Çünki təhsilə qoyulan sərmayə xalqların və ölkələrin gələcəyinə qoyulan sərmayədir. Vətənpərvər gənclik isə o gələcəyin ən etibarlı təminatçısıdır. Əgər ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə yetişən gənclik müstəqil Azərbaycanın bugünkü inkişafını təmin etmişdirsə, bu gün yetişən gənclik də bu inkişafın gələcəkdə davamının təminatçıları olacaqdır”.***

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

# Yeni elektron bazanın təqdimatı keçirilib

Sentyabrın 14-də Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində “Naxçıvan Muxtar Respublikasında şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzi”nin elektron bazasının təqdimatı keçirilib. Tədbiri giriş sözü ilə açan nazir Nicat Babayev bildirib ki, şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən qayğının növbəti ifadəsi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 2 iyul tarixli Fərmanı ilə “Naxçıvan Muxtar Respublikasında şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzi” yaradılmışdır. Fərmanın icrası ilə bağlı ötən müddət ərzində, ümumilikdə, 124 şəhidin 246 ailə üzvünə müvafiq yaşayış sahəsi verilmiş, şəhidlərin 284 ailə üzvünə Prezident təqaüdü, 43 uşaq üçün sosial müavinət, 3 nəfərə Vətən Müharibəsi Qəhrəmanı üçün Prezident təqaüdü təyin edilmişdir. Eyni



zamanda Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun xətti ilə Naxçıvan Muxtar Respublikası üzrə Vətən müharibəsində yaralananlar müalicəyə göndərilmiş, psixoloji dəstək xərcləri qarşılanmışdır. Müharibə iştirakçılarının reabilitasiyası məqsədilə Bakı şəhərində ən yüksək texnologiya əsasında 3 nəfərin aşağı ətraf protezi hazırlanmışdır. Həmçinin ötən müddət ərzində Vətən müharibəsi iştirakçılarından 7 nəfər Naxçıvan Əlillərin Bərpa Mərkəzində müalicə almış, 8 nəfərə isə 14 reabilitasiya vasitəsi təqdim olunmuşdur.

Qeyd edilib ki, elektron bazanın istifadəyə verilməsi, şəhid ailələri üzvlərinin, müharibə iştirakçılarının müraciətləri üzrə icra tədbirlərinin operativliyini və səmərəliliyini artıracaq, onlara tətbiq edilən güzəşt və imtiyazların mərkəzləşdirilmiş qaydada tətbiqini asanlaşdıracaqdır. Nicat Babayev şəhid ailələri və müharibə iştirakçılarına göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Nazirliyin şöbə müdiri Şahin Seyidov ötən müddət ərzində şəhid ailələri üzvləri və müharibə iştirakçıları tərəfindən edilən müraciətlər və onların icrası istiqamətində görülən işlər haqqında çıxış edib. Nazirliyin digər əməkdaşı Vüqar Seyidov məlumat verib ki, yeni yaradılan elektron baza I və II Qarabağ müharibələri şəhidlərinin, onların ailə üzvlərinin, müharibə ilə əlaqədar sağlamlıqlarını itirilməsi müəyyən edilmiş hərbi qulluqçuların və digər bu kateqoriyalardan olan şəxslərin məlumatlarını və onlara tətbiq edilən güzəşt və imtiyazları, müxtəlif təminat tədbirlərini özündə əks etdirir. Bazada hər bölmə üzrə müxtəlif meyarlar əsasında axtarış aparmaq və lazım olan informasiyalar üçün siyahıları məhdudlaşdırmaq mümkündür. Elektron sistem nazirliyin daxilindəki digər sistemlərə də inteqrasiya olunmuşdur ki, bu da bazada olan məlumatlardan daha səmərəli istifadə imkanları yaradır. Əlavə edək ki, sözügedən sistem vasitəsilə mərkəzə edilən müraciətlərin icra vəziyyətinə nəzarət etməklə yanaşı, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə elektron müraciət də etmək olar.

Qeyd edək ki, əlaqələndirmə mərkəzlərinin üzvləri də daxil olmaqla, 20-dək məsul şəxsin iştirak etdiyi tədbirin davamında yeni elektron sistemlə bağlı fikir mübadiləsi aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Xəmsə Festivalının seçmə mərhələsi keçirilib



Dünən Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun dəstəyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının təşkilatçılığı ilə gənclər arasında "Nizami Gəncəvi ili"nə həsr olunmuş Ümumrespublika Xəmsə Festivalının Naxçıvan Muxtar Respublikasındakı seçmə mərhələsi keçirilib. Oyunun keçirilməsində məqsəd gənclərin dünyagörüşünü, zehni inkişafını, intellektual düşünmə qabiliyyətlərini stimullaşdırmaq, onların asudə vaxtını səmərəli təşkil etməkdən ibarətdir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov muxtar respublikada gənclərə və gənclər təşkilatlarına göstərilən dövlət qayğısından danışıblar. Həmçinin dahi şair Nizami Gəncəviyə həsr olunmuş tədbirlərin keçirilməsinin əhəmiyyəti və gənc nəslin dahi şairin poetik irsini daha geniş öyrənməsinin vacibliyi bir daha vurğulanıb.

Oyunda Yeni Azərbaycan Partiyasının Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur və Naxçıvan şəhər təşkilatlarını təmsil edən səkkiz komanda iştirak edib. "Bəlli", "Şərtli", "Sirli", "Fərdi" və "Xəmsə" raundundan ibarət olan oyunda ən çox xal toplayan Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatını təmsil edən komanda I yerin sahibi olaraq muxtar respublikanı Gəncə şəhərində keçiriləcək ümumrespublika final mərhələsində təmsil etməyə haqq qazanıb.

**Xəbərlər şöbəsi**

## Məktəb illəri – ömrün ən şirin, duyğulu, qayğısız günləri...



Dərs ilinin başlanması ərəfəsində həmişə xəyallarım qeyri-ixtiyari olaraq məni ötən əsrin 90-cı illərinə aparır. Anamın cehiz sandığından çıxardığı parçadan mənim üçün öz əlləriylə əzizləyə-əzizləyə tikdiyi ətəyi, dayımın "uriset"dən aldığı ağ köynəyi geyinib güzgünün qarşısında dəqiqələrlə dayanıb özümü böyük sevinclə süzməkdən zövq alırdım sanki. Atamın aldığı rəngli qələmləri, kitab-dəftəri məktəbli çantama dəfələrlə götür-qoy etmişdim. Axşamdan ütülənib dolabdan asılan məktəb üçün geyinəcəyim paltarı gördükcə qəlbimi qeyri-adi sevinc, həyəcan bürüyürdü. Sabahı iplə çəkirdim, çünki sabahdan mən də məktəbli olacaqdım. Və nəhayət, səbirsizliklə gözlədiyim həmin sabah açıldı. Lap erkəndən oyanıb əl-üzümü yumadan, hələ heç kim oyanmadan dolabdan asılan paltarımı geyindim, çantamı götürüb, məni məktəbə aparsınlar deyə, ana-atamı yuxudan oyatdım. İlk müəllimim üçün həyətimizdən axşamdan dərilib, solmasın deyə, suya qoyulmuş gülləri də götürüb,



Naxçıvan şəhər 12 nömrəli tam orta məktəb

Dünən



Bu gün



atamla anamın əlindən tutub yollandıq məktəbə. Evdən məktəbə qədər uzanan yol boyunca mənim kimi məktəbə gedən uşaqların əllərindəki gül dəstələri göz oxşayırdı. Biz o zamanlar Ordubadın ucqar dağ kəndi olan Bistdə yaşayırdıq. Balaca kənd olduğu üçün, demək olar ki, hər kəs bir-birini tanıyırdı. Qarşımıza çıxanlar biz məktəbliləri təbrik edir, uğurlar arzulayırdılar. Çox sevinirdim, deyəsən, diqqət mərkəzində olmaq xoşuma gəlmişdi o gün. Məktəbin həyətinə daxil olanda bir anlıq həyəcan bütün bədənimi sardı. Ancaq xoşbəxt idim, axı o gündən artıq məktəbli olmuşdum.

Hər il məktəbə hazırlaşan şagirdləri, xüsusən birincilərı gördəndə həmin günləri xatırlayıram. Unudulmaz məktəb illəri daha çox kövrək xatirələrlə doludur. Bəlkə də buna görədir ki, hər il Bilik Günü ərəfəsində qayğısız məktəb illərimi xatırladıqca, bəzən kövrəlir, bəzən də ilk dəfə qədəm qoyduğum o məktəb yolu üçün darıxıram. O illərdə bu qədər müqəddəs, bu qədər əlçatmaz olduğunun fərqinə varmadığım məktəb yolu üçün...

Bu günün şagirdləri qədər şanslı uşaqlar deyildik biz. Nə bugünkü kimi yaraşıqlı, işıqlı, hər cür şəraitlə təmin olunan sinif otaqlarında keçirdik dərsimizi, nə də belə bol çeşidli məktəb ləvazimatlarını satış mağazalarından almaq şansımız var idi, hətta pulla satılan dərsliklərin birini tapır, birini tapmırdıq. Titrək lampa işığında, odun sobasının zəif istisinə qısıla-qısıla birtəhər dövrümüzü oxuyurduq. Qışda sinifdə soyuqdan əlləri tabaşir tutmayan şagirdlərdik biz. Elə buna görə qışboyu xəstələnər, ilin çox vaxtını dərsdən geri qalardıq.

Böyüdükcə sinfimizi dəyişirdik. Amma şıltaq uşaqlığımızın nazını çəkən, "Saqqallı uşaq" timsalı qələmin iti ucuyla üzərinə izlər qoyduğumuz partalar, ağ tabaşirlə üzərinə neçə-neçə xəzinələr həkk olunan lövhələr uzun illər öz yerinə sadiq qaldı. Daha neçə-neçə şıltaq uşaqları qarşılayıb yola saldı. İllər ötdükcə köhnəlmiş lövhələrin üzərində həkk olunmuş tarixçələr də artıb, bir-birinə qarışdı. Lakin zaman keçdi, partalar, lövhələr də yerini dəyişməli oldu. Məktəbimizin binası yenidən quruldu, yaraşıqlı sinfin işıqları ilə parlayan yeni partalar balaca fidanlara qucaq açdı. Dövlətimizin diqqət və qayğısı ilə dəyişən təkcə məktəb, siniflər, partalar olmadı. İnternetli, kompüterli, telefonlu dövrümüzdə düşüncələr də dəyişdi. İndi artıq o parlaq partaya xatirələr həkk olunmur. Sözün açığı, nə qədər uşaq ağlında olursan-ol, o gözəlliyə xələl gətirməyə insanın əli gəlmir.

Bu gün muxtar respublikanın ən ucqar kəndlərində belə, məktəb binaları yenidən qurulur, hər cür şəraitlə təmin olunaraq şagird və müəllimlərin istifadəsinə verilir. Bu isə həm müəllimlərdə, həm də şagirdlərdə ruh yüksəkliyi yaradır.

Budur, yenə gəldi məktəb zamanı. Bir zamanlar bəzən şən, bəzən də kədərli addımlarla qədəm qoyduğumuz məktəb yollarını yenidən irəliləyirik. Bu dəfə tək yox. Məktəb illərinin yaddaşımızdan heç vaxt silinməyən xatirələri də bizə yolyoldaşıdır. Bir də əlindən tutub məktəbə tələsdiyimiz övladlarımız.

Yaraşıqlı, gözəl məktəb binası qapılarını yenidən şagirdlərin üzünə açır. Deyəsən, məktəb də uşaqların sevinc dolu səs-küyü üçün darıxıb. Məktəbin önündə 3 ayın susqunluğundan sonra yenidən canlanma yaşanır. Əllərində al-əlvan çiçəklərlə düzülmüş balaca fidanlar ilk dərs gününün sevincini yaşayır.

*Bir azdan ilk zəng çalınacaq. Kimisi ilk dəfə parta arxasına keçməyin həyəcan və sevincini yaşayacaq, kimisi də məktəbdən ayrılacağı son aylarının kövrək hisslərinə qapılacaq. Uşaqları dərsə yola salıb, xatirələrlə dolu məktəb yolunu yenidən tərk edirəm. Eh yollar, qovuşdurduğun kimi, həm də ayrılığa aparırsan...*

**✍ Gülcamal TAHİROVA**

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini avqust ayında da davam etdirib, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqətdə saxlanılıb.*

## Əhalinin sağlamlığı diqqətdə saxlanılır

Ötən ay Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən dializ edilən xroniki böyrək çatışmazlığı olan xəstələr üçün dializ materialları və dərman preparatları gətirilib. Tibb işçilərinin peşə bacarıqlarının yüksəldilməsi istiqamətində tədbirlər davam etdirilib. 3 həkim Bakı şəhərində kurs, 1 rezident və 4 orta tibb işçisi Naxçıvan şəhər tibb müəssisələrində iş yerində, Azərbaycan Tibb Universitetinin 2 tələbəsi isə tibb müəssisələrində təcrübə keçməsi üçün göndərilib. Naxçıvan Tibb Kollecinin 34 tələbəsi tibb müəssisələrinə hamiliyə verilib və 45 orta tibb işçisi Tibb Kollecində nəzəri və praktik kurs keçib. Həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılan imkanlar hesabına əhalinin tibbi müayinəsini uğurla davam etdiriblər.

Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin həkim briqadası Şahbuz Rayon Mərkəzi Xəstəxanasında 189, Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası isə Şərur Rayon Mərkəzi Xəstəxanasında 259 nəfəri hərtərəfli tibbi müayinədən keçirib. Şərur rayonunda 8 cərrahi əməliyyat aparılıb. Respublika Xəstəxanasının göz həkimləri Kəngərli, Babək, Sədərək, Şahbuz və Ordubad rayonlarında şəkərli diabet xəstəliyindən əziyyətçəkən 128 xəstənin göz dibinin müayinəsini aparıblar. Aşura günü ənənəvi keçirilən qanvermə aksiyasında Naxçıvan Muxtar Respublika Xəstəxanası, Diaqnostika Müalicə Mərkəzi və rayon mərkəzi xəstəxanalarında, bütövlükdə, 504 nəfərdən 255,1 litr qan tədarük edilib. Respublika Xəstəxanasında Bakı şəhərindən dəvət olunmuş LOR həkimi tərəfindən 8 nəfərdə müayinə və 7 nəfərdə cərrahi müdaxilə aparılıb. Ordubad Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası tərəfindən Nüsnüs kənd ərazisində yerləşən Bət dibi, Söyüdlük, Diyax, Xoşlu və Baş yurd obalarında, Culfa Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası tərəfindən Dəmirli yaylağında, Şərur Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası tərəfindən Qanlıgöl obasında, Şahbuz Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası tərəfindən Qanlıgöl, Batabat obasında, Kəngərli Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası tərəfindən Sirab yaylağında, Babək Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası tərəfindən isə Batabat obasında olan heyvandarların kütləvi tibbi müayinəsi aparılıb.

Cari ilin avqust ayında Bakı şəhərindən 68 sağlamlıq imkanları məhdud şəxs sanator-kurort müalicəsi üçün qəbul edilib. Onlardan 27-si Darıdağ Arsenli Su Müalicəxanasına, 23-ü Duzdağ Fizioterapiya Mərkəzinə, 18-i isə Diaqnostika Müalicə Mərkəzinə göndərilib. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ötən ay 3 nəfəri Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 2 nəfəri Naxçıvan Əlillərin Bərpa Mərkəzinə göndərib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Fövqəladə hallara hazırlıq günün tələbidir

Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi və onun struktur qurumları tərəfindən muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrası cari ilin avqust ayında da təmin edilmişdir. Nazirliyin hazırlıq planına uyğun olaraq Naxçıvan Günəş Elektrik Stansiyasında taktiki-xüsusi təlim, Şərur Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsində kompleks yoxlama keçirilmişdir.

Sənayedə və dağ-mədən sahələrində texniki təhlükəsizliyin təmin olunması məqsədilə dövlət reyestrində qeydiyyatdan keçmiş 13 təhlükə potensiallı obyektdə mühafizə işinin təşkili yoxlanılmış, 18 qurğu sınaqdan keçirilərək texniki təhlükəsizlik sertifikatı ilə təmin edilmiş, 22 texnoloji nəqliyyat vasitəsi texniki baxışdan, 12 texnoloji nəqliyyat vasitəsi dövlət qeydiyyatından keçirilmişdir. 12 tibb müəssisəsində nəzarət funksiyaları həyata keçirilmiş, 2 tibb müəssisəsinə radioloji-gigiyenik pasport verilmişdir. Muxtar respublikada mülki müdafiə işinin təşkili ilə bağlı 4 obyektdə yoxlama, 27 obyektdə maarifləndirici tədbir və qrup məşğələləri təşkil olunmuş, 122 nəfərin mülki müdafiəyə və fövqəladə hallara hazırlanması təmin edilmişdir.

Muxtar respublika ərazisində virus infeksiyalarına qarşı dezinfeksiya işləri aparılaraq, ümumilikdə, 11 milyon 54 min kvadratmetr sahə dezinfeksiya edilmişdir.

Muxtar respublikada yanğın təhlükəsizliyinin etibarlı təmin olunması məqsədilə 169 obyektdə diqqətli, 184 obyektdə nəzəri, 27 obyektdə isə məqsədli yoxlamalar keçirilmiş, 2909 yaşayış evinə baxış olmuş, 85 elektrik, 74 şlanqla çəkilmiş qaz xətti dəyişdirilmiş, 104 tez qatlanan tüstü borusunun istismarı dayandırılmışdır. Həmçinin keçirilən baxışlar zamanı 8476 vətəndaş yanğına qarşı təlimatlandırılmış, 64 obyektlə icbari sığorta müqaviləsi bağlanmışdır.

Muxtar respublika üzrə 72 obyektin tikintisi və yenidən qurulması ilə bağlı olaraq işlərin tikinti norma və qaydalarına uyğun aparılması yoxlanılmış, icra hakimiyyəti orqanları tərəfindən təqdim olunmuş 50 layihənin qeydiyyatı aparılmışdır. Ay ərzində Uzunoba çimərliyində xilasedici dalğıcların xidməti təşkil edilmiş, 7786 vətəndaşın təhlükəsiz istirahəti təmin olunmuş, suda boğulma təhlükəsi ilə üzləşən 5 nəfər xilas edilmişdir. Fövqəladə hallarda fəaliyyəti zəruri olan 83 obyekt yoxlanılmış və aşkar edilmiş nöqsanların aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülmüşdür.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Əliyev Qurban Bayram oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayon Nehrəm qəsəbəsində Teymurov Mustafa Əmiralı oğlunun adına olan 790 inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 771